EaPGREEN Partnership for Environment and Growth

This project is funded by the EU

OECD BETTER POLICIES FOR BETTER LIVES

Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan

## Strateji Ekoloji Qiymətləndirmə nədir?

- **Strateji Ekoloji Qiymətləndirmə (SEQ)** təklif olunan plan, proqram və ya digər strateji sənədlərin ətraf mühitə və insan sağlamlığına potensial təsirlərinin planlaşdırma mərhələsində təhlil edilməsi və əldə edilən nəticələrin ilkin qərar qəbulu prosesinə inteqrasiyasını, habelə davamlı inkişaf prinsiplərinin nəzərə alınmasını təmin edən sistemli, ardıcıl qiymətləndirmə üsuludur.

## Strateji Ekoloji Qiymətləndirmə üzrə beynəlxalq hüquqi sənədlər

- **SEQ üzrə Avropa Direktivi 2001/42/EC və BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) SEQ üzrə Protokolu** əsas beynəlxalq hüquqi bazadır. **SEQ Protokolu** BMT AİK-in Transsərhəd Konteksdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə Konvensiyasının (Espoo Konvensiyası) Tərəflərinin 21 may 2003-cü il tarixdə Kiyev şəhərində keçirilmiş növbədənkənar “Avropa üçün Ətraf Mühit” Konfransında imzalanmış, 10 iyul 2010-cu il tarixdən qüvvəyə minmişdir.

## SEQ-in tətbiqi sahələri:

- SEQ “***kənd təsərrüfatı, meşəçilik, balıqçılıq, enerji, minadan təmizləmə də daxil olmaqla sənaye, nəqliyyat, regional inkişaf, tullantıların və suların idarə edilməsi, telekommunikasiya, turizm, şəhərsalma və ya torpaqların idarə edilməsi*** kimi sahələrə tətbiq edilir. Bu strateji sənədlər müvafiq icra orqanı tərəfindən qeyd olunan sektorlar üzrə hazırlanan, eləcə də gələcəkdə ətraf mühitə təsirin qiymətləndirilməsini tələb edən fəaliyyətlərin layihələndirməsini nəzərdə tutan plan və proqramları (habelə digər strateji sənədləri) əhatə edir.

UNECE

UNEP

UNIDO

ETSN

REC CAUCASUS

## SEQ prosesi

SEQ-in tətbiqinin zəruriliyi əsaslandırıldıqdan («screening» prosesi) sonra SEQ prosesi aşağıdakı mərhələlərdə həyata keçirilir:

- Baza təhlilləri və qiymətləndirmənin əhatə dairəsinin müəyyən edilməsi («scoping»)
- Ətraf mühitə və insan sağlamlığna təsirlərin qiymətləndirilməsi və təkliflərin hazırlanması - SEQ üzrə Hesabatının hazırlanması
- SEQ prosesində («scoping» və SEQ-nin nəticələri üzrə) ictimaiyyətin iştirakının təmini
- Əlaqədar orqanlarla, eləcə də ətraf mühit və səhiyyə orqanları ilə məsləhətləşmələrin aparılması
- Planlaşdırıcı orqan tərəfindən qərar qəbulu və bəyənnamənin verilməsi
- Monitorinq (və ya fəaliyyətin izlənilməsi)

Qeyd olunan mərhələlərin icra mexanizmləri SEQ üzrə Protokola uyğun təlimat sənədlərində öz əksini tapmış və azərbaycan dilinə tərcümə edilmişdir:

- Strateji Ekoloji Qiymətləndirmə Protokolunun icrası üzrə təlimat vəsaiti – UNECE və Mərkəzi və Şərqi Avropa üzrə Regional Ekoloji Mərkəz, 2012. İlk nəşr 2006, ikinci nəşr 2012.

Bax:
http://www.unece.org/env/eia/sea_manual/welcome.html
http://www.unece.org/fileadmin/DAM/env/eia/documents/SEA%20Manual/translations/SEA_Resource_Manual_Aze.pdf
SEQ üzrə pilot layihə haqqında .*Bax*:
http://www.unece.org/environmental-policy/treaties/environmental-impact-assessment/about-us/protocol-on-sea/envseaeapgreen/sea-pilot-projects.html

## SEQ üzrə fəaliyyət:

Azərbaycanda Respublikası BMT AİK-in Transsərhəd Konteksdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasını (Espoo Konvensiyası) ratifikasiya etmiş (1999,25 mart), SEQ üzrə Protokoluna qoşulmamışdır. Hazırda Azərbaycanda SEQ Protokoluna keçidi sürətləndirmək məqsədilə SEQ üzrə milli hüquqi və praktiki hazırlığın təmin edilməsi məqsədilə Espoo Konvensiyasının **“2014-2017-ci illər Fəaliyyət Planı” (**2-5 iyun 2014-cü il tarixdə Cenevrə şəhərində keçirilmiş Tərəflərin VI Iclasda (UNECE Espoo MOP6) Şərqi Avropa, Qafqaz, Mərkəzi Asiya və Cənubi Şərqi Avropa ölkələri üçün qəbul olunmuşdur) çərçivəsində tədbirlər həyata keçirilir. Tədbirlər **Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən BMT AİK ilə əməkdaşlıq əsasında, eləcə də Aİ Şərq Tərəfdaşlığı ölkələri üçün Yaşıl İqtisadiyyat - “EaP Green” Proqramının maliyyə dəstəyi ilə həyata keçirilir:**

•SEQ üzrə dövlət qulluqçularının, ictimaiyyətin məlumatlandırma tədbirləri keçirilmiş, beynəlxalq təcrübə mübadiləsi aparılmışdır. Müvafiq fəaliyyətin, xüsusilə SEQ üzrə imkanların genişləndirilməsi və kadr potensialının inkişafı istiqamətində tədbilərin davam etdirilməsi planlaşdırılmışdır.

• Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi üzrə yeni Qanun Layihəsi beynəlxalq və milli ekspertlərin dəstəyi ilə təkmilləşdirilmiş və tətbiqinin prakitiki yoxlanılması, eləcə də SEQ üzrə təcrübənin mənimsənilməsi məqsədilə SEQ üzrə pilot layihə həyata keçirilmişdir.

•Pilot layihə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi arasında koordinasiya və əməkdaşlıq əsasında **“Alternativ və Bərpa Olunan Enerji Mənbələrindən İstifadə üzrə Dövlət Strategiyası - 2015-2020”** layihə sənədinə tətbiq edilmişdir. Layihə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Azərbaycanda SEQ üzrə həyata keçirilən ilk pilot layihədir.